**ELDAR GÜNEYLI**



# VƏTƏN HAVASI

# VƏTƏN HAVASI



**ELDAR GÜNEYLI**

# Içindəkilər

Ey Azərbaycan ........................................................3
Baltacı Arazın zirvəlerə çıxan səsi ...........................5
Azərbaycan igiti nə yatıbsan ayağa dur....................8
21 Azər Xatirəsi ...................................................14
Şair Baltacı Arazın kitabı girsə xalqın rəfinə .........16
Tənqidçiyə əxlaqsız deməkTürkə yaraşmaz..........18
Ana dilimizdə öyrənmək xətər sayılır. ...................22
Azərbaycan xalqı düşünür istiqlalına ....................25
Nasyonalizm milli haqları tələb edər......................28
Ana dili Nədir?.......................................................31
Deyirlər irançılar qəzəbləşibdir ..............................34
Yetər artıq utanmaq yaxşı şeydir! (1).....................37
Yetər artıq utanmaq yaxşı şeydir! (2).....................40
Türk xalqı nə zaman oyanacaqdır?.........................43
Ana dilində Mədrəsə açılmalıdır hər kəsə!.............45
Niyə İslam dünyası geri qalıbdır?...........................47

# Ey Azərbaycan

Ey Azərbaycan
Sənə olsun canım qurban
Sən mənim Vətənim, yurdum, yuvam!
Necə ayrılsın səndən elin oban?

Səndə mən doğuldum, göz açdım bu dünyaya
Səndə mən dil açdım, böyüdüm bu dünyada.

Ey Azərbaycanım,
E……hey Azərbaycan
Sənə olsun canım qurban
Sən mənim Vətənim, yurdum, yuvam
Necə ayrılsın səndən elin oban?

Sənin var qoca tarixin
Odlar yurdu adlanır adın
Alovlanır yanır hər yanın!
Sən Babəklər yurdusan,
Ulu xəlil, Məmməd Arazlar,
Qurdular şumalında istiqlalnı
Yaratdı gülüstan payemasın ulu bəxtiyar
Aşıladı güneyində xalqına,
Bu ideyanı Baltacı Araz[1]:
Otay ilə butay vahid bir candır,
Adı odlar yurdu Azərbaycandır.

[1] Güney Azərbaycanın milli istiqlal şairi. http://www.otay-butay-vetendir.com/

Ey Azərbaycan,
E……hey Azərbaycan
Sənə olsun canım qurban
Sən mənim Vətənim, yurdum, yuvam
Necə ayrılsın səndən elin oban?

Sən alovlar yurdusan
Sönməyəcək közün, yaxacak düşmanların
Alacaq torpaqlaın, Daşnak Ermənidən
Harayların güneyində, göyə qalxacaq
Şumalına yan qalacaq
Otay Butay olmayacaq
Bütöv Azərbaycan yaranacaq
Xalqımız birləşib, bir yaşayacaq.

Ey Azərbaycanım,
E……hey Azərbaycan
Sənə olsun canım qurban
Sən mənim Vətənim, yurdum, yuvam
Necə ayrılsın səndən elin oban?

Ey Azərbaycanım,
E……hey Azərbaycan.

07.02.2014

# Baltacı Arazın zirvəlerə çıxan səsi

1

Uşaqlıqdan böyüdün Vətən dərdiylə
Vətənimizi qurtarmaq havasiyla
Yaşadın xalqın döyünən ürəyiylə
Sən doğuldun millətivə xidmət edəsən
Əli dolu son mənzilivə sarı gedəsən.

2

Məktəbi başladın başqa dil ilə
Ana dilini unutmaq şərti ilə
Öyrənmədin öz ana laylay səsi ilə
Dilimizi yasaq edənlərə ar olsun
Onların peşində gedənlər xar olsun.

3

Məktəbdə Fars dilini öyrənmək istəmədin
Tər ağacıyla, kötəklə zor altına getmədin
Nədənlərini araşdırıb axtarmağa başladın
Fars dilini öyrəndin farsca Farsları[2] ifşa edəsən
Fars şovonizmin nə etdiyini xalqına göstərəsən.

4

Məktəbdə oxutdular farslara çomaq olasan
Farsların planların çizməyə qul olasan
Xalqını səndə asimiləşdirib quyruq olasan
Sən bacarıb memar oldun doğma yurduna
Vətənin, xalqın azad olub qurtulmasına.

---

2 Fars şovonnizmindən sohbət grdir

5
Ömür qıssa idı, əlli səkkizdə canını aldı
Sən getdin adın yurdun Azərbaycana qaldı
Əsərlerin kitablaşıb xalqımıza qaldı
Bugün adın çıxır Azərbaycanda zirvələrə[3]
Azərbaycan fəxr edir sənin kimi igitlərə.

6
Vətənin ehtiyacı var sənin kimi igitlərə
Yazıların, kitabların yayıb yetirsin millətivə
Millətin oxuyub bacarsın dərdlərini çözməyə
Xalqımızın milli şüuru dirçəkləşməkdədir
Sənin göstərdiyin düşüncə gərçəkləşməkdədir.

7
Sən becərdin bütöv Ayərbaycan[4] ideyasın
Aşıladın xalqımıza özgürlüyün[5] havasın
Qoşdun, yaratdın böyləcə xalqımız anlasın
Otay ilə butay vahid bir candır
Adı odlar yurdu Azəbaycandır.

8
Qarabağın işqalını gətirdin gündəmə
Bir milyondan çox qoçağı yaşayır sürgündə
Başçılarımız  yeyib-içib yatır əyləncədə
Yazdın, yaratdın xalqın oxuyub anlayacaq
Tərbiz ilə Qarabağımızı kim qurtaracaq[6]?

[3] http://www.azadliq.info/faq/357-kiv/32398-arazn-susmayan-ssi.html
[4] Şairin yazdığı Otay Butay Vətəndir  adlı kitab
[5] İstiqlal, azadlıq
[6] Şairin yazdığı kitabın adı. http://www.otay-butay-vetendir.com/PDF/3_La_Terbiz_ile_Qarabagh.pdf

9
Uyqarlaş[7] adlı kitabın çıxdı ışıq üzünə
Haqq nədir, haqlı kimdir söylədin millətivə
Bu Firdosuçular[8] nə gətirib vətənimizə?
İnsanları çağdaş, mədəni olmağa çağırdın
Öz haqlarını tanıyıb qorumağa çağırdın.

10
Sən bizə örnək olub yol göstərdin millətivə
Dərdlərimizin səbəblərin göstərdin çözməyə
Sən getdin igitlərimiz çıxmalıdır bu düzləre
Analar Baltacı Araz kimi igitlər doğmalıdır
Yurdumuzu, xalqmızı bu durumdan qurtarmalıdır.

11
Məktəbi bitirdin memar olasan
Vətənində ev tikmədə ustad olasan
Oxudun, yazdın vətənini qurtarasan
Azərbaycanı qurtarmağa səndən bizə 3-əsər qaldı
Kimlər qurtuluşa inanıb adıvı xalqımıza yaydı?

27.01.2014.

[7] http://www.otay-butay-vetendir.com/PDF/1_La_Uyqarlash.pdf
[8] Irançı ırqıçılar(Rasistlər)

# Azərbaycan igiti nə yatıbsan ayağa dur

1
Güneyində Urmu gölün susuzladırlar
Ana vətənin gurudub duzlaşdırırlar
Xalqın evin-eşiyin əlindən alırlar
**Azərbaycan igiti nə yatıbsan ayağa dur.**

2
Xalqımızı işsizlikdən yurdunu satdırırlar
İş üçün farsistana sığadıb vətənindən ayırırlar
Kürdləri yerləşdirib şimali kürdistan yaradırlar
**Azərbaycan igiti nə yatıbsan ayağa dur.**

3
Biliksizlikdən xalqımız fars kültüründə əriyirlər
Xalqımız yuxlayıb oyanmaq istəmyirlər
Səbəblərini düşünməyən köklərindən kəsilirlər
**Azərbaycan igiti nə yatıbsan ayağa dur.**

4
Məktəbdə uşaqların asimiləşdirirlər
Onları özgə diliylə gəlişdirirlər
Varlığımızı yer üzündən silirlər
**Azərbaycan igiti nə yatıbsan ayağa dur.**

5

Dağların, çayların, ataların və anaların
Adların dəyişib farsca adlandırırlar
Adına təməddün[9] deyib bizləri alçaldırlar
(başqa xalqıları soyqırıma məruz qoyurlar)
**Azərbaycan igiti nə yatıbsan ayağa dur.**

6

Novruz bayramında fars dilliləri təbrik edirlər[10]
Başqaları zir-zibil[11] sayıb kimliyin silirlər
Bizimkilərə ar olsun farslara quyruq olmaq istəyirlər
**Azərbaycan igiti nə yatıbsan ayağa dur.**

7

Gələcəkdə[12] fars dilini  gəlişdirmək istəyirlər
Başqa dilləri  Iran xəritəsindən silmək istəyirlər
(Israil dövlətinidə dünya xəritəsindən silmək istəyirlər)
Nə yazıq bizlərə farscanı ləhcəsiz öyrənmək istəyirlər
**Azərbaycan igiti nə yatıbsan ayağa dur.**

8

Bizim vergiləriylə Əfğana, Tacikə TV açırlar
Fars dilini təbliğ etməyə  imkan yarardırlar
Başqa dilləri yasaqlayıb insan haqlarından danişırlar
**Azərbaycan igiti nə yatıbsan ayağa dur.**

---

7 gəlişmə
10 Iran Prezidentlərindən sohbət gedir
11 xəso xaşak (Prezidet Ehmedinajadın deyişi)
12 20 illik dövlət programı

9
Torpaqlarımızı bölüb yadlara verirlər
İşsizlikdən xalqımızı sürgün edirlər
Sürgündə başqa kültürlə manqurt edirlər
**Azərbaycan igiti nə yatıbsan ayağa dur.**

10
Farbrikaların Azərbaycanda kapadırlar
Yeraltı sərvətin farsistana daşıyırlar
Farsistanda yerləşdirb yaradırlar
**Azərbaycan igiti nə yatıbsan ayağa dur.**

11
Aydınların asimiləşib manqurtlaşırlar
Uşaqlarıyla farsca danışıb yazışırlar
Nə yazıqlar olsun köklərindən ayrılırlar
**Azərbaycan igiti nə yatıbsan ayağa dur.**

12
Toy, düyünlərində fars mahnısıyla şadlanırlar
Görəsən nə üçün farslar ilə hallanırlar?
Əlbəttə ki kökündən qopanlar satqınlaşırlar
**Azərbaycan igiti nə yatıbsan ayağa dur.**

13
Niyə irqiçi firdosuşular bizə tərs yanaşırlar?
Olmaya irqiçi olduqlarını başqalarında arayırlar?
İnsan haqların pozub, özlərini haqlı sayırlar
Belə də iş olar? üz deyir dəllək qayişı
Bunlara nə desən, gərçək yaraşırlar
**Azərbaycan igiti nə yatıbsan ayağa dur.**

14
İrqiçi firdosuçular 2500 öncədən söyləyirlər
21-ci əsirdə eynı imperya qurmaq istəyirlər
Utanmayıb özlərini çağdaş insan göstərielər
**Azərbaycan igiti nə yatıbsan ayağa dur.**

15
İrqiçi firdosuçular bilməlidirlər
Beyinlərin geridən silməlidirlər
Çağdaş insan haqlarını görməlidirlər
**Azərbaycan igiti nə yatıbsan ayağa dur.**

16
2500 il öncədə tarix yaratdılar
Firuteşlərin burnun kəsib asdılar
Bistun daşlarında bu işlərin[13] yazdılar
**Azərbaycan igiti nə yatıbsan ayağa dur.**

17
İrqiçi firdosuçular cinayətlərinə fəxr edirlər
Ənuşirəvan,  Kuruş kimi  cinayət edənlər
Bugün adil adlanıb kəbirdə deyirlər
**Azərbaycan igiti nə yatıbsan ayağa dur.**

18
Geçmiş 1200 il türk tarixin adın silirlər
Fars tarixi adlandırıb millətinə yem verirlər
İngilis gücü ilə damad olub bizlərə höküm edirlər
**Azərbaycan igiti nə yatıbsan ayağa dur.**

13 Cinayətlərin

19

Tariximizdə Tomris kimi cəngavərlərin var
Qatil kuruşlara öz qanını yedidənlərin var
Ayaq üstə durmağa  böyük xalqın var
**Azərbaycan igiti nə yatıbsan ayağa dur.**

20

Sənin tarixində böyük ziyalıların var
Baltacı Araz kimi istiqlalçı şairlərin var
Vətənin qurtuluşuna yazmış 3- ciltdə əsərin var
**Azərbaycan igidi nə yatıbsan ayağa dur.**

21

"Azərbaycan hamilədir istiqlala[14]"
"Uyqarlaş[15]" ilə "Otay butay vətindir[16]" kitablar
Azərbaycan övladına qalmışdır şairdən yadigar
**Azərbaycan igiti nə yatıbsan ayağa dur.**

22

Sənin 40 milyon igit qoçağın var
Milli şüur və istiqlal üçün yazılmış əsərin var
Bunları teorizə edən Baltacı Araz kimi memarın var
**Azərbaycan igiti nə yatıbsan ayağa dur.**

[14] Bu kitab Fars dilində yazılmış.
[15] http://www.otay-butay-vetendir.com/PDF/1_La_Uyqarlash.pdf
[16] http://www.otay-butay-vetendir.com/PDF/2_La_Otay_Butay_Vetendir.pdf

23
Azərbaycan hamilədir istiqlala
Adından bəllidir nə lazımdır Azərbaycana?
Rəzalətdən qurtulsun yetişsin kama
**Azərbaycan igiti nə yatıbsan ayağa dur.**

24
Uyqarlaşı oxuyan yetişər bugünki çağa
Oyrənər öz ayağı üstündə durmağa
Qurtarar təhqirdən ana bacısını Azərbaycanda
**Azərbaycan igiti nə yatıbsan ayağa dur.**

25
“Otay Butay vətəndir”, adindan bəllidir
Param-parça olmuş  bir xalqın, Vətənin dərdidir
Bu üç əsərin memarı Baltacı Araz şairdir
**Azərbaycan igiti nə yatıbsan ayağa dur.**

26
Biz bugün milli şüura silshlanmalıyıq
Taptalanmış haqlarimızı zalımdan almalıyıq
Öz ayağımız üstündə durmağa layiq insanlarıq
**Azərbaycan igiti nə yatıbsan ayağa dur.**

27
Milli şüura silahlanmaq üçün
Haqlarımızı tanıyıb almaq üçün
Baltacı Araz şairi tanımalıyıq
Vətənimizi, Xalqımızı əsarətdən qurtarmalıyıq
**Azərbaycan igiti nə yatıbsan ayağa dur.  16.01.2014**

# 21 Azər Xatirəsi

1

İrmi bir  Azer xatirə günüdür
Həm şanlı həmde kədərli günüdür
Bir xalqın yaddaşından çıxmaz bu gün
Xalqımızın fəryadı çıxdı bu gün
Vətəni zülmüdən qutardı bu gün.

2

İrmi bir Azəri dün basdırdılar
Otuz beş min xalqın asdırlılar
Nə qədr Ana bacın qaçdırdılar?
Kitablarında yaxıb yaxdılar
Öyrətmənində odda yandırlılar.

3

İrmi bir Azər Alovlar günüdür
Yandirb düşmanı yaxan günüdür
Düşmanı Vətəndən qovan günüdür
Sinəmizdə yanıxların közüdür
Xalqımızı azad edən günüdür.

4

Diritməliyiz yenə o dövranı
Firqə demokrat yaradan dövranı
Düşmanı çaş baş qoyduran dövranı
Azəbaycandan qovduran dövranı
Milli hqların aldıran dövranı.

5

Sən doğulmusan alovlar yurdunda
Alovla yandır zalimi  yurdunda
Alov qoymaz qala zülüm yurdunda
Koroğlu sazı, misri qılınciyla
Baltacı Arazın fəryadlariyla.

6

Araz qan ağlar[17] yaratdı şairin
Vətənin qurtulsun dedi sizlərin
Bu qədər xalqımıza zülm olmasın
İrmi bir  Azer şəhidlərimizin
Tökülmüş qanları yerdə qalmasın.

7

Xalqımız ayağa dumalıdırlar
Nə qədər zülmə göz yummalıdırlar?
Vətəni yaddan qurtarmalıdırlar
Vətən bizim şərəf, namusumuzdur
Ona sahib çıxması  borcumuzdur.

22.10.2013

[17] http://www.otay-butay-vetendir.com/otay-butay/210-5.html

# Şair Baltacı Arazın kitabı girsə xalqın rəfinə

Nə lazımdır xalqımıza, bayat xəyalçı məfkürəsine

1

Deyirlər bəzləri[18] mənəviyyatdan danışırlar
İnsanları aldadıb xəyalçılıqdan[19] danışırlar
Azərbaycan xalqına dərdlərindən danişırlar
Deyirəm niyə səbəblərini buraxıb
Nəticə və sonuclarından danışırlar.

2

Deyirlər 1400 ildir mənəviyyatdan danışırlar
Insan haqları adı gələndə, Allah dan danışırlar
Araşdırıcılarımız çalışıb, səbəblərin tanıdırlar
Deyirəm niyə araşdırıcılarn düşüncəsi yayılmayır
Onları xalqımıza şüursuz və əxlaqsız[20] tanıdırlar.

3

Deyirlər geçmişimiz, bizim tariximizdir
Tariximizı ələşdirmək bizə nə lazımdir
Biz hələ xəyaçılıq səbəbini araşdırmayırız
(Biz hələ xalqımızı gəlişdirmək istəməyiriz)
Deyirəm 1400 ildir xəyalçılar[21] bizi bugünə qoydular
Onları tanıyıb, tanıdanları kafər adlandırdılar.

---

[18] Cavad bəy İsmayılbəyli (10.07.2013 GünAzTV-də)
[19] **"İç dünya" xəyaldı, dış dünya gərçək**
**Gərçəklərə düşün, xəyaldan əl çək!"**
**Baltacı Araz, 43-cü bənd şeir Uyqarlaş kitabı səhifə 17**
[20] Cavad bəy İsmayılbəyli (08.07.2013 GünAz TV)
[21] Bugünkü kravatlı şeyxlər də: Onları tanıyıb, tanıdanları şüursuz adlandırərlar,
Onları tanıyıb, tanıdanları əxlaqsız adlandırırlar)

4
Deyirlər 1400 il yetmədi , 35 ildə sınadıq
Dərdlərimizin üstünə yenədə dərd qaladıq
Şeyxlərindən qurtulmamış, kravatlılarına raslandıq
Deyirəm görəsən hara gedir sabahımız?
Bu yeni yetmə kravatlı "Aydınlarımız"?

5
Deyirlər geçmişin şairləri, tarixdə anınmaqdadır
Bugünki **çağdaş** şairlərin adı sayılmamaqdadır
Çünkü çağın **düşüncəsi** xalqımıza yayımlanmamaqdadır
Deyirəm Baltacı Arazın **kitabı**[22] girsə xalqın rəfinə
Nə lazımdır xalqımıza **bayat xəyalçı** məfkürəsine.

6
Deyirlər xəyalçılıq bizim xalqın mənəviyyatıdır
Xəyalçılıqa toxunan bizim **düşman**ımızdır
Biz hələ 1400 ildən öncəyə düşünməliyiz
Deyirəm bu səbəbdəndir toplumumuz **gəlişməyir**
Avroppa təkin, məmləkətimiz **sənayə**ləşməyir.

7
Araz xalqının ışıq saçan bir günəşidir
Daha bulutlar kölgəsində qalmayacaqdır
Səsi və düşüncəsi xalqına çatacaqdır
Xalqı baykotçuları daha tanıyacaqdır
Baykotçular xalqı necə yanltlayacaqdır?

14.07.2013

22 http://www.otay-butay-vetendir.com/

# Tənqidçiyə əxlaqsız demək Türkə yaraşmaz

1

Deyirlər diktatorlar tənqidçiləri öldürərlər
Bəzən həbs edib bəzən də yerə vurub sərərlər
Birisi[23] tənqidçiyə "**fitnə**", obirisi[24] "**büzğalə**" deyərlər
Birisi[25] "**xəso xaşak**[26]" obirisi[27] "**vətən xaini**" söylərlər
Deyirəm diktatorluqun məhsulu budur
Çünkü danışdığı sözə sorunluğu yoxdur.

2

Deyirlər diktatorluğn məhsulu geri qalmışlıqdır
Demokrasıdan danışıb **ümməçiləri** ovlamaqdır
Ovladıqdan sonra, tovlayıb onlari sağmaqdır
Deyirəm gəlin bizdə anlayıb qanalım
Tənqidçini pisləyib əxlaqsız sanmayalım.

3

Deyirlər dinçi[28] Cavad bəy İsmayılbəylidə[29]
Demokrat olur danışır insan haqları üzərində
Gah nala vurur gah da mıxa, təngidçinin peşində
Deyirəm səndə[30] oxuyub bilməlisən
Insan haqlarını sevib bəyənməlisən.

---

[23] Əli Xaməneyi
[24] Mulla Ehməd Xatəmi (Büzğalə = Geçı)
[25] Mahmıd Əhmədinəjad
[26] Zir-Zibil
[27] Hüsein Şəriyətmədari
[28] zehindən geri galmış
[29] 08.07.2013 GünAzTV-də
[30] Cavad İsmayılbəyli

4
Deyirlər Cavad bəy də tənqidçini pisləyir
Öyrəndiyi feodalı sistiminin bilimləri
Formalaşdırib İsmayılbəyli kimi zehinləri[31]
Deyirəm 1400 il ovlandıq dinlədik
Americada oturb demokrasını öyrənmədik.

5
Deyirlər İsmayılbəyli də diktatorları tənqid edir
Onların üz dərisin qaşıyıb, faşist olduqların göstərir
Demək Cavad bəy də diktatorların kim olduğun söyləyir
Deyirəm niyə özümüzə gələndə tərs yumurtlayır?
Feodal sistimin bəyənən şairini, təqid edəni əxlaqsız sayır?

6
Deyirlər İsmayılbəyli demokrasıdan danışır
TV programı bitdikdə, **müsəlmanlarla** sağollaşır
Başqaların "**xəso xaşak**[32]" görür tənqidçiyə dolaşır
Deyirəm dinçi dargörüşlü zehinli olar
Ziyalı Türkçü, tənqidçini[33] düşman sayar.

31 Tənqidçiyə əxlaqsız adı qoyub söyləyir
32 Preziden Mahmıd Əhmədinəjadın deyişi (zir-zibil)
33 Güney Azərbaycanın tənqidçi şairi Baltaci Araz

7

Deyirlər GünAz Tv-de, ziyalıları tanıdırlar
Feodalı sistimin bəyənən şairlərdən danışırlar
Çağdaş demokrası ilə, insansevəlikdən yapışırlar
Deyirəm niyə Türkçü, istiqlalçı şairi[34] boykot edib
Adını çəkməkdən qorxub, cin ilə bismillahdan danışırlar.

8

Deyirlər Azərbaycan ziyalıların araşdırırlar[35]
Ölüləri dirildib düşüncələrin yayırlar
Sayı 19-da daha səlahiyyət[36] almayırlar
Deyirəm Əhmıd bəy Obalı* izin verrisə
Işçiləri çalışıb davamlayıb, sayını artırırlar.

*- Maşaallah qoçqğa bax qoçqğa!
Tayı yoxdur görəsən yurdunda!
Azərbaycanda hakim olursa?
Görəsən nə verəcək xalqına?

9

Deyirlər güney Azərbaycanlı, savaşa dalmaqdadır
Ziyalıların tanıdıb, düşüncələri yayımlanmaqdadır
Görəsən niye Baltacı Arazın adı sayılmamaqdadır?
Deyirəm diktatorliğun məhsulu, dargörüşlü olar
Özündən biganəni, xalqımıza düşman sayar.

---

34 http://www.azadliq.info/faq/357-kiv/32398-arazn-susmayan-ssi.html
35 GünAz TV-də
36 Rədd səlahiyyət olurlar
Müqayisə edin İran İslam Respublikasının şuraye nigəban organi ilə. Azərbaycana istiqlal istəyənlər *(Əhməd bəy Obalı və onun ümmətçilərindən söhbət gedir).* Böylə bir hakimiyyət quracaqlarmı? böylə getsə Ayətollah Cənəti və Əli Xamənei kimi ləriyndən nə fərqniz var?

10

Deyirlər Əhmədinəjadın cibində 300 kişinin adı var
Televisionda özünü popolist göstəeməye sözü var
Cavad[37] bəy de deyir, Füzulunu təhqir edən bəzləri var
Deyirəm adını, düşüncəsini söyləmədən nəyin var
Olmaya adını söyləməməkdən, cibində siçan zili var.

Hörmətli Cavad bəy İsmayılbəyli lütfən GünAz TV-də Sorunluluq hissi daşiyıb və bir Türkçü Ziyalını tənqid etdiyi bir başqa Şairi heç bir sənəd ortaya qoymadan, əxlaqsız və şürsuz adlandırmayın. Bu işlər prezident Mahmıd Əhmədinəjad lara yaraşsada, biz Türklərə yaraşmaz.

09.07.2013

[37] Cavad İsmayılbəyli
„Boykotçu Türk arazizmini yaymaz,
Özünü saymayanı kimsə saymaz.
(Boykotçuya güvənilməz.)"
- Baltacı Araz

# Ana dilimizdə öyrənmək xətər sayılır.

1

Neçə ay bundan öncə seçimlər oldu
Ruhanı Xalqına qərarlı oldu
Birinci vədəsi Urmu gölü oldu
Vədələri ilə millətimizə sorunlu oldu
Xalqımızı ovlayaraq Prezident oldu.

2

Xalqımızı aldatmaq üçün konuşdu[38]
35- il yalançılıqları yenədə görüşdü
Amma demədi sözlərimin iç boşdu
Aldanıb arxasına gedələr kimlər oldu?
Azərbaycan xalqına hançı bir iş görüldü?

3

Urmu gölün həlli arxivə qoyuldu
Dil məsələsi üçün məmur təyin olundu
Qeyri fars dilləri məktəblərdə oxunsun
Bu gün[39] dill fərhəgistanı qərarını verdi
Qeyri farsa yaşam haqqı gömüldü.

[38] Istanbul şivəsi
[39] 27.01.2014 http://chaparak.ir/detail/News/482634

4

**Tacikə** **Əfğana** bizim vergilər ilə kitab yazırlar[40]
Xalqların ana dilində danışmağın **təhdid** sayırlar
Bünyade Sədidə qeyri farslara 200 kişi artırırlar
Ana dillərin kəsib, fars dilini ağızlara salırlar
Özlərini insan sanıb, bizləri **böcək** sayırlar.

5

Ana dilimizdə öyrənmək **xətər** sayılır
Biganə[41] dilini öyrənmək **qanuni** adlanır
Farslara nökər olmaq **ədalət** sayılır
İran içində qeyri farsların **kökün** kəsirlər
Farslara bizdən yana **insan haqları** bəkləyirlər.

6

O zamankı **fars dövləti**[42] hakim oldu
Başqa dillərin İranda qatili oldu
Şovonist paltarın geyib xain oldu
Xainlərin cəzasını libi-də gördük
Bu xainlərin cəzasını verməli olduq.

7

İslam adiyla başımıza börk qoydular
"İstiqlal", "azadi" şuari ilə  don dəyişdilər
**Pəhləvi** sulaləsin **planların** yürütdülər
Şahların sınadıq, özümüzə gəlmədik
Şeyxlərin gördük, ayağa durmalıyıq.

---

[40] http://chaparak.ir/detail/News/482634
[41] Fars
[42] Pəhləvi sulaləsindən başlayaraq bu günə qədər davam edir.

8

İslam **ə<u>zilmişə</u>** haqq verməyir
Vədə vəid ilə  illərdir **<u>cənnətə</u>** göndərir
<u>35</u>- ildir Iranda **<u>ədalətsiliyin</u>** göstərir
Haqq verilməz, haqqı almağa dalmalıyıq
Əlimizi əl üstünə qoymayıb, savaşa hazırlanmalıyıq.

28.01.2014

# Azərbaycan xalqı düşünür istiqlalına

Möhsun Ibrahimiyə yanit (1)

1
Deyirlər hizbe "komunist" kargəri
İddea edir nəcat verəcək "işçiləri"!
İşçi problemini çözər işçi sinfiləri (Partiyaları)
Siz əgər təmsil edirsiniz İran işçilərin?
Buraxın Xalqın[43] özünə milli məsələsin.

2
Azərbaycan xalqı düşünür istiqlalına
Milli haqların alıb azad  olmasına
Son qoysun sərvətlərinin çapılmasına
Son versin daha sömürgə qalmasına
Qurtarsın xalqını əsarətdə yaşamına.

3
"Komunist" qılıflı Möhsün İbrahimilər[44]
Adlandırıblar özlərini "işçi"lərə dəstək
Çalırlar şovonist Farslara böyük dəflər
Vururlar Azərbaycanlıya çoxlu töhmətler
Şovonistlərə qarşı mucadilədən əl çəksinlər.

---

[43] Azərbaycan xalqına
[44] Möhsün İbrahimi

4
Farsca yazır çarıx geyən ailəsinə
Deməyir çapılır sərvətləri Vətənində
Azərbaycanlı iş arayır Şiraz ilə Yəzdində
Sökülür Süngün misi ilə Tikantəpə qızılı
Qurulur fabrikaları Farsistan şəhərlərində.

5
Alırlar Azərbycanlıdan vergiləri
Tikirlər Farsistanda Üniversitələri
Gəlişdirirlər biganə dili ilə bizləri
Məhsulu olur manqurt M. Bəy İbrahimiləri
Fars şovonizminə qulluq etsin düşüncələri.

6
Biz hələ əsarətdən qurtulmamışıq
Özümüzü Farslar kimi insan saymamışiq
Aynı haqları özümüzə almamışıq
Haqlarımızı istəyənlərə “ Xər” deyirlər
Vurub yerə sərməyə “ Pantürkist”[45] də deyirlər.

45 və ya Nasyonalist

7
İlk öncə öz varlığımızı bir insan kimi tanımalıyıq
İkincisi başqaları[46] kimi ayaq üstə durmalıyıq
Üçüncüsü Vətənimizə, sərvətlərinə sahiblənməliyik
Məmləkətimizi qurduqdan sonra bir komunist kimi
İşçi, Qadın, haqlarını tanıyıb insan kimi yaşamalıyıq.

8
Azərbaycanlı haqların almağa ayağa durubdur
Fars şovonizm[47]in quluqçıları təhlükəyə düşübdür
Manqurt olub özündən biganələri əl ayağa düşübdür
"Komunist" adı ilə millətimizi caydırırlar
Fars şovonozminə qulluq etməyə utanmayırlar.

9
Möhsün bəy İbrahimilər İran "Komunist"ləridirlər
Onagörədə Fars şovonizmin işinə gəlməlidirlər
Azərbaycan komunistləri  öz xalqına düşünürlər
Azəerbaycanlı ayağa durub istiqlalın alacaq
İşçi, Qadın haqların qoruyub, insan kimi yaşayacaq.

10
Azərbaycan komunistləri öz partiyaların qurmalıdırlar
İranbaycançı partiyalardan daha çıxmalıdırlar
Fars şovonizmin Azərbaycandan qovmalıdırlar
Öncə Azərbaycanın istiqlalını almalıyıq
Sonra başqa xalqılara yan durmalıyıq. 03.02.2014

[46] Farslar kimi
[47] Rasizmi

# Nasyonalizm milli haqları tələb edər

Möhsun Ibrahimiyə yanit (2)

1
Bu günlər hizbe "komunist" kargəri
Əl ayağa düşübdür satqın üyələri
Özündən biganə olmuş İbrahimiləri
Şovonizmə[48] xidmət edir düşüncələri.

2
Bu günki İran adlanan Məmləkətində
Dirçəlir Xalqların milli düşüncələri
Öz haqlarına sahib olmaq istəkləri
Rahatsız edib Möhsün İbrahimi[49]ləri.

3
Buraxıblar ırqıcı şovonistləri
Atıblar ortaya saçma[50] ideolojuları
Caydırırlar xalqımızın milli hərəkətin
Şovonistlərə qarşı mubarizə etməsin.

4
Deməyirlər Azərbaycan əyaləti
Bir Ölkədir, Farsistan bölgəsi deyil
Sərvətləri öz xalqına aiddir
Fars şovonistlərinə aiddeyil.

[48] Fars rasizmi
[49] Manqurt olmuş özünü Ayərbaynalı tanıdan İran işçi "komunist" partiyasının üyəsi
[50] Boş söz

5

Biz hələ sosiyalizmə düşünməyiriz
Çünkü şovonizmin[51] əsarətindəyiz
Hələ müstəmləkədir Azərbaycanımız
İstiqlalı üçün, ayağa durmalıyız.

6

Həddad[52] kimi irançılığa israrınız var!
Çünkü satqınlığa qabliyyətiniz var!
Azərbaycana nə biçim marağınız var?
**İstiqlalımızın** kimlərə zərəri var?

7

**Nasyonalizm** milli haqları tələb edər
Azərbaycan xalqı o yolu təmsil edər
Fars şovonizmi milli haqları ibtal edər
Həddad ilə Möhsün bəy, bu yolu təhmil edər.

8

Fars elmlər Akademiyasının üyələri
Qeyr fars xalqlara qərarlarını  verdilər
Sizində münasibətlərinizi onlara
Bu haqda xalqımız yetərli qədər gördülər.

9

Fars şovonizmi çalıp-çapır Azərbaycanı
Alırlar vergiləri, gömrük ilə faizləri
Yatırırlar Farsistanda bizim **sərvətləri**
**Sənayələşdirirlər** öz fars şəhərlərini.

---

51 Fars şovonizminin
52 Həddad Adel= Fars elmlər Akademiyasinin prezidenti

10

Alınır Üniversitələrə 70% fars dilliləri
Alırlar 30% qalmış səhmini qeyr fars millətləri
**İran büdcəsinin** 70% Farsistanda yatırılır
Qalanı gör neçə... əyalətlərə bölünür[53]?[54]

11

Neçə faiz **Sərvətlər** farsistanda yatırılır?
Onun neçədə biri Azərbaycanda yatırılır?
Neçə faiz **Üniversitəlrdə** fars dillilər alınır?
Onun neçədə... biri Azərbaycanlı alınır?
Neçə faiz **Xəstəxanalar** farsistanda tikilir?
Onun neçədə...... biri Azərbaycanda tikilir?
Neçə faiz **Fabrikalar** farsistanda tikilir?
Onun neçədə biri Azərbaycanda tikilir?
Neçə faiz **Avtubanlar** farsistanda tikilir?
Onun neçədə biri Azərbaycanda tikilir?
Ən önəmlisi (Axtaran tapar!)
İran millətinin neçə faizi **Fars** millətidir?
Onun neçə .... .......faizı **Türk** millətidir?

12

Azərbaycan xalqı bu səbəbdəndir,
Milli haqlarını almağa dalıb
"Komunist" qılıflı İbrahimilər,
Rasizmin[55] xeyrinə ayağa qalxıb.

12.02.2014

---

[53] Yalansa, doğru amarları ortaya qoyun
[54] (Azərbaycan, kürdistan,loristan, Ərəbistan, Bəluçistan və Türkmənisatn...)
[55] Fars şovonizmin

# Ana dili Nədir?

1

Uşaq eşidər ilk ana dilində
Sonra öyrənər bu duyduğu dildə
Başlar danışmağa doğduğu dildə
Dili insan səslərdən yaradıbdır
Özünü heyvanlardan ayırıbdır.

2

Dil uşağın ana lay lay səsidir
Ana bətnindən duyduğu səsdir
Bətnidə yaranan düşüncəsidir
Düşüncəni kimsədən almaq olmaz
Başqa düşüncəyə döndərmək olmaz.

3

Uşaq ilk öncə içində düşünər
Sonra düşüncəsin səsə gətirər
Səslər formalaşıb dili yaradar
Dil insanın doğal düşüncəsidir
Düşüncəni duyduran şəkilidir.

4

Dil insanı yaşamda gəlişdirər
Heyvan səviyyəsindən enişdirər
İnsanlıq qabiliyyəti yaradar
Sonra qələmiylə yazıya geçər
Yazıya geçən dillər məktəbləşər.

5

Qələmsiz danışıq hayvana bənzər
Çünkü yalnız meşələrdə səslənər
Meşələrdən insan çoxdan çıxıbdır
Başqa insanlarla qonşu olubdur
Birlikdə  bir yerdə toplum qurubdur.

6

**Bütün** insanların ana dili var
Onu danışmağa **doğal** haqqı var
Dili yazmağa **qanunu** haqqı var
Bir dili **yasaqlamaq** mümkün deyil
Ona qarşı çıxanlar **insan** deyil.

7

Bütün dünyada olan ölkələrdə
Yaşayırlar neçə dilli millətlər
Hamısının özəl dilləri vardır
Hər kəsin öz dili özünə xoşdur
Çünkü öz dili ilə böyümüşdür.

8

Dil iki formada gəlişdirilər
Birincisi ağızda formalaşar
İkincisi yazıda formalaşar
Yazılmayan dillər indiki əsirdə
Məhv olub gedər iki üç nəsildə.

9

Ana dilil insanın kimliyidir
Kimlik hər insanın tüm varlığıdır
Hər insan varlığın qorumalıdır
Hər xalqın dilin əlindən alırsan
Yer üzündən onun kökün qazırsan.

10

Ana dili xalqın gəncinəsidir
Formalaşması minlər il çəkmişdir
Əcdadlarımızdan qalmış irsidir
Qoruması xalqın vəzifəsidir
Yoxsa o xalqın məhv olmasıdır.

19.02.2014

# Deyirlər irançılar qəzəbləşibdir

1
Deyirlər irançılar[56] qəzəbləşibdir
Milli hərəkatın qarşısındadır
Ağızdan təhqirlər çıxardmaqdadır
Deyirəm irançılar xəstələnir
Çünkü milli hərəkatı dirçəlir.

2
Azərbaycalı ayağa durubdur
İrançılar əlayağa düşübdür
İranistan təhlükəyə düşübdür
İrançı əsəbləşməsin neyləsin?
Fars şovonizminə qulluq etməsin?

3
Deyirlər milli fəallar birləşir
Geçmişdəki səhvlərdən öyrənir
İstiqlala bir addım yaxınlaşır
Milli haqlarımız aydınlaşır
İrançılar eşidib sancılanır.

4
Deyirlər Bay bak bəy Azərbaycanlıdır
Niyə yaydığı sitə irançıdır?
Azərbaycançılara qarşı çıxır?
Olmaya Fars şıvonozmin goludur?
Onlara xidmət etməkdə bulunur!

---

[56] Özünü sözdə Azərbaycanlı sayıb, farslara kölə olanlar

5

Kim olduğu yazılarından çıxır
Milli fəallara kinindən çıxır
Yürütdüyü düşüncəsindən çıxır
Kimsə ona hörmətsizlik etməyir
Bəlkə yazdığı sözlər dəyərlənir.

6

Fars şovoniymi içindən çürüyür
Manqurtları öz içində bürüdür
Çamır atmağa düşüncə yürüdür
Tanınmış irançıların satın alır
Azərbaycan xalqına çamır atır.

7

Görəsən bu irançılar kimlərdir?
Azərbaycan xalqına nə etmişdir?
Xalqımıza nisbət görəvi nədir?
Olmaya görəvi çamır atmaqdır?
Far şovonizminə qulluq etməkdir?

8

Kimlər istiqlala innanmışdırlar?
Xalqımızı aydınlaşdırmışdırlar?
Bay bak bəylər harada qalmışdırlar?
Çamır atana siyasi deməzlər
Milli fəalları təhqir etməzlər.

9

Tənqidçi hər zaman səhvi göstərər
Doğru yolu xalqına təklif edər
Düşmanın çizdiyini altüst edər
Təbrizli Bay bak bəy tənqidçi deyil
Şovonizmin[57] çizdiyi yolu gedir.

10

Xalqımız hərkəsi tanımalıdır
Gələcəyini planlamalıdır
Milli şüura silahlanmalıdır
Milli şüura silahlanan bir xalq
Taleyini öz əli ilə qurar.

23.04.2014

[57] Fars şovonizmi

# Yetər artıq utanmaq yaxşı şeydir! (1)

1
Farsın şuar yazan şovonist[58]ləri
İran futbol takımının adını
Saçma “ Fars iftixarı”səsləndirib
İranlıları farsca adlandırırlar
Özgə gücü ilə damad olurlar
Fəxrlərini fars adına yazırlar.

2
İran , İraq şələmçə cəbhəsində
Azərbaycan ordusu gücü ilə
İranı savaşda qalib edənlər
İranlı yox bəlki fars adlandırırlar
Azərbaycanlıya həmvətən deyib
Fəxrlərini fars adına satırlar.

3
Ərəb[59] ölkəsinin neftin-qazın satıb
Sərmayəsin farsistanda yatıranlar
Xalqların dilin yasaqlayıb
Onları səfalətdə yaşadanlar
Ərəbləri həmvətən adlandırıb
Fəxrlərini fars adına satırlar.

[58] Rasist
[59]Əl Əhvaz (bugünki xuzistan bölgəsi)

4

Bugün yirmibirinci əsirdə
Neçə dilli qurulmuş bir ölkədə
Başqa xalqlar ilə yaşayıb
Onlara həmvətən deyənlər
Özlərini çağdaş insan göstərib
Fəxrlərini fars adına satırlar.

5

Ey özlərini farsca demokrat sayıb
Azərbaycanlıya həmvətən deyənlər
Milli haqsızlıqları ölkəsində görüb
Fars şovonizmin qarşısında susanlar
Futbol takımı farslardan uluşmayıb
İftixarları fars xalqına yaraşmayır.

6

Ey özlərini Azərbaycanlı sayıb
Farslara həmvətən söyləyənlər
Ölkənin yaradıcılığında canın-malın verib
Şovonistlərin təhqirinə məruz qalanlar
Haçana qədər ölkənizdə qul yaşayıb?
Fəxrlərinizi özgələr adına satacaqlar?

7

Ey Azərbaycanın satqın depotatı
Azərbaycan adına alırsan maaşı
Təmsil edirsən məclisdə Farsları
Xalqımıza alırsan hanki haqları?
Satırsan sərvətlərimizə Farsistana
Gətirirsən fəlakəti Azərbaycana.

8

Ey Azərbaycanın politikaçıları
Sandalıya üstə dava qoparanları
Özündən başqalarını sevməyənləri
100-ildən bəri ölüləri dirildib tanıdanları
Çağın istiqlalçı şairin[60]baykot edənləri
Xalqın içindı güvənlərin itirənləri.

9

Ey Azərbaycanın istiqlalçıları
Məsuliyyət daşımayan yalançıları
Xalqımızı milli şüura yoxsun qoyanları
Azərbaycanı əsarətdən qurtarmağa
Xalqımız milli şüura silahlanmalıdır
Milli şüurun manifesti [61]tanınmalıdır.

16.05.2014

---

[60] Şair Baltacı Araz
[61] O tay, bu tay Vətəndir

# Yetər artıq utanmaq yaxşı şeydir! (2)

1

Prezident seçimləri bir il ötüşdü
Ruhani vədələrini unutdu
Urmu gölünün suyunu qurutdu
Danışdıranda haqlardan danışır
Etirazçıları dustaqa basır.

2

Allah adıyla hökumət edirlər
Haqqa yetişməyə dəvət edirlər
Haqqı istəyəni dustaq edirlər
Baş əyməyəni edam edirlər
Üstəlik meyidin[62] də verməyirlər.

3

Qeyri farslara bu qədər zülm edirlər
Ağzı dolu haqlardan söyləyirlər
Haqqını ölkədə tələb edənlər
Kafər olub, düşman da adlanırlar
Kölə olarsa vətəndaş sayırlar.

[62] Səttar Behişti kimilər

4
Vətənin yolunda canın verəndə
Vətəndaş ilə iranlı deyirlər
Milli haqlarını tələb edəndə
Seperatist ilə düşman görürlər
Üstəlik “Türk xər” də adı verirlər.

5
Milli qururumuzu öldürüblər
Xalqımızı asimiləşdiriblər
Özlərini daha üstün görürlər
Aydınlarımız tamaşa edirlər
Yazarlarımızı[63]baykot edirlər
Niyə bəs rasizmə yardım edirlər?

6
Xalqımız biliksizlikdən mələyir
Biganə[64] kültürdə özün əridir
Aktivistlər medyada sərgilənir
Milli şuura biganə baxırlar
Özlərini xalqa təmsilci sayırlar.

[63] Baltacı Araz kimi istiqlalçi şairi
[64] Fars kültüründə

7

İnternet, Facebookdakı fəallar
İt, at-pişik şəkillərin yayanlar
Milli şuura biganə baxanlar
Özlərini istiqlalçı adlandırıb,
Xalqımıza öndər yaraşmayırlar.

8

İstiqlalçı adlandıranlarımız
Milli şuurdan yoxsunlularımız
Xalqına yalan satanlarımız
Siz Azərbaycana biganəsiniz
Gələcəyin Hamid Karzaylarısınız.

9

Ey Azərbaycanlı aydınlarımız
Baykotçularımızla həmavazlarımız
Ümmətçi tərbiyət olanlarımız
Xalqı aydınlaşdırmayanlarımız
Xalqın işinə gəlməyənlərimiz
Yetər artıq utanmaq yaxşı şeydir.

05.06.2014

# Türk xalqı nə zaman oyanacaqdır?

1

Niyə Ərdoğan Türkə üz döndərir?
Türk xalqı onu zirvəyə gətirir
Xalqı ondan görəvini bəkləyir
Öz səhvlərini xalqın adına yazır
Türkləri daşnaklara suçladır?

2

Xocalı soyqırımı unutulur
Sənədsiz soyqırımı qəbul edir
Daşnaklar lobusun tabliğ edir
Nədən satqınlıq içimizdən çıxır?
Öz əli ilə özümüzü yıxır?

3

Türkə düşmançılıq hər yerdən vardır
Türkün  birləşməsindən hər kəs qorxur
Azərbaycan param-parça olubdur
Güneyinə iran sahib cıxıbdır
Ərdogan bu işlərə göz yumubdur.

4
Iraqda türkmanları dağıdırlar
Kərküku türkmanlardan ayırırlar
Kürdləri yerləşdirib oturdurlar
Ərdoğana petrol verib alırlar[65]
Rüşvətlə Türk xalqından ayırırlar.

5
Ədalət adı ilə hakim oldu
Ölkənin sərmayəsin satdı sovdu
Türkiyyəlini bərbad günə qoydu
Irticanın təməlini ölkədə
Sekular dövlətin yerinə qoydu.

6
Rüşvət aldığını ayan etdirdi
Yox abırı xalqın içində getdi
Yapdığı işlərə yanıt vermədi
Yerinə twitteri[66] filter etdi,
Oy verdiyi xalqına xəyanət etdi.

7
Türk xalqı nə zaman oyanacaqdır?
Varlığın düşmandan qoruyacaqdır?
Bri birinə dəstək olacaqdır?
Fars, Rus, Erməni pərdə arxasında
Torpağı param-parça olacaqdır? 01.05.2014

---

[65]-satın alırlar
[66]-Interneti

## Ana dilində Mədrəsə açılmalıdır hər kəsə!

1
22 Mayda xalqımızın harayı çıxdı
Haqlarin almağa küçələrə çıxdı
Ana dilində mədrəsə açmağa çıxdı
Allahın hakim olduğu ölkədə
Haqsızlıqların harayı göylərə çıxdı.

2
Ana dilində mədrəsə açın bizlərə
Harayladılar xalqımız küçələrdə
Duymadılar haqlarını deyən istəklərdə
Döyməklə qənaət etmədi zülmlər
Silahla öldürdülər, kor oldu neçə gənclər.

3
Ana dilində açılsın xalqımıza mədrəsə
Bəsit bir haqdır bu gün bizlərə
Xoşlarına gəlməyir haqqı istəyənlərə
Allah adına haqlardan danışırlar
Haqqını istəyənləri gör nə günə salırlar?

4
Ana dilində mədrəsə istəyən gənclər
Dustaqda yatırlar yüzlərcə həmvətənlər
Allaha düşman sayılır haqlarını istəyənlər
Deyirlər bu insanları Allah yaradıbdır
Niyə yaraddığına ana dilini yasaqlayıbdır?

5

Ana dilində açılsın insanlara mədrəsə
Doğal haqdır yaranmış hər bir kəsə
Allaha düşmançılıq nədir? bu istəklərdə?
Ana dilində mədrəsə günahdırsa bizlərə?
Haqq nədir? haqlı kimdir? yaranmış bəşərə!

6

Xalqımız yenedə küçələrə çıxıb haraylamalıdır
Allahdan danışanlara haqlarımızı tanıtlmalıdır
Görəsən bu allah niyə farsların allahıdır?
Farsa ana dilində mədrəsə haqdır!
Azəbaycanlıya öz dilində mədrəsə günahdır?

7

Ana dilində Mədrəsə açılmalıdır hər kəsə
Bu bir doğal haqdir dünyada bəşəriyyətə
İnsan təhsil etməlidir yaranmış dilində
Kimsə insanların dilini yasaqlaya bilməz
Yoxsa insan haqlarından danışa bilməz.

09.06.2014

# Niyə İslam dünyası geri qalıbdır?

Avropa inkişaf etdib sənayeləşibdir!

1

Deyirlər o zaman ki America yoxudu
Avropalıya yer allahları hököm sürürdü
Xalqı cəhl ilə xurafatda yaşam sürürdü
Başqa düşüncəlilər Galilə ilə Jandark lar
Səlibə çəkilib odda yandırılıb, öldürülürdü.

2

Toplum doğuda  Bağdaddan Səmərqəndə
Ziyalıları fəlsəfə ilə elimə məşqul idi
Hökmdarları daha üstün dövlət qururdu
Avropada başqa düşüncəli basqı altında
Doğuda başqa düşüncəli hörmət görürdü.

3

Deyirlər doğuda böyük ziyalılar var idi
Zəkəriyyaye Razılar ilə Xəyyamlar yaşayırdı
Marağada araşdırmağa münəccimşunaslıq açıldı
Nə Xəyyam dinçi idi nə Zəkəriyyaye  Razi
Onlar dini beyinlərindən sildilər oldular razı.

4

Gəlin acı həqiqətləri doğuda qəbul edəlim
Geçmişə bu qədər nazlanıb fəxr etməyəlim
Onun təməlləri[67] ilə bu günü dəyərləndirəlim
Necə oldu? Avropa inkişaf etdi sənayeləşdi?
İslam dünyası yerində sayaraq geri qaldı?

5

İslam deyir maddı dünyaya düşünməyin
Axirəti bu günki ləzzətlərlə dəyişməyin
Axirətə düşünün, bu dünyadan[68] əl çəkin
Bu dünyanın gəlişməsinə[69] çalışmayın
Cəhalətdə[70] yaşayın elmə[71] fikirləşməyin.

6

Hər gün 17 kərə əyilin durun, ərəbcə[72] oxuyun
Vaxtınız qalırsa qurani[73] il boyu təkrar oxuyun
Iqtisad “heyvana aiddir”[74] ona vaxt qoymayın
İlin bir ayın[75] küçə[76]lərdə zəncir vurun
O birisi ayın[77] səhərdən axşama oruc tutun.

[67] İslam dininin hakim olduğu niticəsində bu gün islam dünyasının geri qaldığını dəyərləndirməliyiz.
[68] Quranın çox yerdə bəyan etdiyi Ayələr
[69] Axund Misbah Yəzdi(Biz iqtisad üçün inqilab etməmişik bəlki Allahın əhkamlarını icra etmək üçün....)
[70] Dinin göstərdiyi xurafatlar
[71] Elmi öyrənən kafər olar
[72] Namaz qılmaq
[73] Yalnız ərəb dilində(Hətta Məhərrəm və Ramazan aylarının dışında)
[74] Ruhullah Xumeyninin iqtisada baxışı
[75] Mohərrəm Ayı
[76] Küçələrdə, məsciddə
[77] Ramazan Ayı

7

İlin 35 günündən[78] çoxun evdə- məsciddə oturun
Peyğəmbər ilə İmamların matəmlərin tutun
İqtisad "heyvan malıdır", ticarətlə məşqul olun
Axirəti unudub, maddi dünyaya düşünməyin
Cənnətdəkilərlə dünyadaki ləzzətləri dəyişməyin.

8

Avropada cəhalətlə xurafatda yaşayanlar
Həfdədə 2-saat Kinisə ilə Kilisaya gedərlər
Vaxtları qalırsa bu dünyada ləzzətlə yaşıyarlar
İqtisad ilə elmə fikirləşib zaman qoyarlar
Ölkələrin sənayələşdirib, cənnət qururlar.

9

Doğuda[79] islamın göstərdiyi usullar
Maddi dünyadaki yaşama baxışlar
Ticarətlə məşqul olub, biri ikiyə satanlar
İnkişafa düşünməyən namaz qılanlar
"İqtisad heyvan malıdır" adlandıranlar
**<u>İnkişaf</u>**da avropalıdan **<u>geri</u>** qalıblar
**<u>İqtisad</u>**da avropadan **<u>asılı</u>**dırlar
**<u>Siyasət</u>**də Avopalıya **<u>kölə</u>**də olubblar.

15.06.2014

[78] Daha nə qədər zaman qaldı
[79] Ortadoğu və Ərəb ölkələrində



**Azərbaycan xalqı düşünür istiqlalına**

**Milli haqların alıb azad  olmasına**

**Son qoysun sərvətlərinin çapılmasına**

**Son versin daha sömürgə qalmasına**

**Qurtarsın xalqını əsarətdə yaşamına**

www.veten-havasi.com